DOI:10.30546/gdu.2023.286-289

**UOT:82.**

# HERMAN MELVİLLİN HEKAYƏLƏRİ

***Eyyubova Zohra Kamil qızı***
***Azerbaijan University***
***eyyubova.zohra@gmail.com***

**Xülasə:** *Məqalədə Herman Melvillin müxtəlif hekayələri metodoloji kontekstdə dəyərləndirilir. Hekayələrdə xeyirlə yanaşı şərin də mövcud olması, həyatın mürəkkəbliyi və müxtəlifliyi təsvir edilir. Sosial konfliktlər, personajların taleyi onların iç dünyasının təhlili kontekstində araşdırılır. Köləlik, Vətəndaş müharibəsi haqqında düşüncələri təhlil edilir.*

**Açar sözlər:** Herman Melvill, novelistika, bədii metod
**Keywords:** Herman Melville, novelistics, artistic method
**Ключевые слова:** Герман Мелвилл, романистика, художественный метод

H.Melvillin həyat və yaradıcılığı müxtəlif aspektlərdə, müxtəlif metodoloji-nəzəri yanaşmalar kontekstində tədqiq olunmuşdur. H.Melvillin yaradıcılıq yolunu dərk etmədən Amerika ədəbiyyatının inkişaf istiqamətlərini təsəvvür etmək mümkünsüzdür.

Yazıçının dünyagörüşünün və estetik prinsiplərinin təkamülünü anlamaq üçün novellalarının əhəmiyyəti az deyil. Yazıçının bu janrda əsərlərinin az olmasına baxmayaraq onun yaradıcılığının mühüm mərhələsini təşkil edir. H.Melvillin bədii üsullarının mahiyyətini, əsərlərinin səciyyəvi xüsusiyyətlərini müəyyənləşdirməkdə hekayələr əhəmiyyətli mənbələrdir.

H.Melvillin diqqətçəkən hekayələrdən biri də “Kilsə zəngi” adlanır. Hekayənin qısa məzmunu belədir: Levant ilə ticarətdə varlanmış italyan dövlətlərindən biri usta Bannadonnadan ən möhtəşəm kilsə zəngini qurmasını sifariş edir. Qüllə tikilir. Bircə dünyada bədii və texniki cəhətdən analoqu olmayan kilsə zənginin və saat mexanizminin qurulması qalır. Kilsə zənginin əridilməsi zamanı əriyən metalın səsindən fəhlələr təşviş içində vurnuxub qaçırlar. Bannadonna irəli çıxıb bu qarışıqlığın günahkarını ərinti çömçəsi ilə vurub öldürür və vəziyyəti xilas edir. Həmin qətli törədən cinayətkarın günahsız olması müəyyən olunur və hakim Bannadonnaya bəraət verir. Keşiş isə günahlarından keçir. Onlar qətli “estetik ehtirasın qəfil təzahürü kimi” hesab edib cinayət işinə xitam verirlər və kilsə zəngində çətinliklə nəzərə çarpan çatların olmasını metala bədbəxt işçinin beyin sümüyünün düşməsi ilə izah edirlər.

Saat mexanizmi məsələsi də bir az qəlizləşir. Bannadonnanın ixtira etdiyi mexaniki qaravolçu hər saatdan bir öz budkasından çıxıb qatlanmış əlləri ilə kilsə zəngini döyməlidir. Nəhayət, xalqın kilsə saatının səsini eşidəcəyi gün və saat gəlib çatır. Kilsə zənginə son ştrixlərini edən Bannadonna mexaniki qaravulu tamam unudur. Mexaniki qaravul öz yaradıcısının başına zərbə endirir. Az sonra isə çatların genişlənməsi nəticəsində məşhur kilsə zəngi yerindən qopub düşür. “Beləliklə, kor kölə özünün kor ağasına itaət edir. Amma itaət edərkən onu öldürür. Beləliklə, yaradıcı özünün yaratdığı tərəfindən öldürülür. Kilsə zəngi qüllə üçün həddən çox ağır idi. Kilsə zənginin zəifliyi onda idi ki, insan qanı ona ziyan vermişdi. Onun düşmə səbəblərindən biri də təkəbbür idi.” [3, səh. 18]

Melvill həm də şair idi, nəsrinin poetik ruhu da buradan gəlirdi. Yazıçı köləlik, Vətəndaş müharibəsi haqqında düşüncələrini poeziya toplusunda (1866) və ona son sözündə ifadə etmişdir. [2, səh. 285]

Melvillin poeziyası araşdırmamızın obyekti deyil. Amma şeirlərində və son sözdə əsas fikir budur: müharibə, şübhəsiz, şər hadisəsidir, özü ilə zorakılıq, ölüm gətirir. Ona görə də Cənubu haqsız tərəf kimi təqdim edir. Çünki məhz Cənub köləliyi saxlamaq və ölkəni bölmək

DOI:10.30546/gdu.2023.286-289

istəyir. Melvill üçün bu müharibə sadəcə Şimal və Cənub arasında deyil, Birlik və Ayrımçılıq, Azadlıq və Köləlik, Xeyir və Şər arasında müharibədir.

Melvill ölkənin gələcəyini bütün sakinlərin: həm cənubluların, həm şimallıların, eləcə də keçmiş qulların ayrılmaz vəhdətində görürdü. Onların tale birliyi ilə ölkənin çiçəklənməsi mümkündür.

Melvill yaradıcılığının tədqiqatçısı M.Vanderhaar yazır: "Görünür, vətəndaş hüquqları uğrunda hərəkatın qeyri-adi gücləndiyi illərdə 50-60cı illərin (XX əsr) tənqidində köləlik probleminə o qədər diqqət yetirilməsi təsadüfi deyil. Çünki XX əsrin ortalarında "zənci problemi" yenidən amerikan düşüncəsində ön plana çıxır." [4, p.182]

"Kilsə zəngi" hekayəsində yeni mövzu-burjua cəmiyyətində insanın maşına tabe olması ilə yaranan təhlükə mövzusu təqdim olunur. Yeri gəlmişkən, bu problem bu gün də öz aktuallığını saxlayır.

"Enkantadlar" adlı fəlsəfi povestin əsas ideyası odur ki, insan bu dünyada xeyirlə yanaşı, şərin də mövcud olmasını, həyatın mürəkkəbliyini və müxtəlifliyini anlamalıdır. Ən əsası düzgün yol seçməkdir. Bunun üçün isə həyatda insandan saf ürək və möhkəm inam ("Enkantadlar"da Hunillada olduğu kimi) tələb olunur.

Ümumiyyətlə, Melvill insan taleyini sosial müstəvidə şərh edir, insanın məğlubiyyətinin kökü düşdüyü vəziyyətlərdədir.

Melvill novelistikasının sferasını sadəcə ayrı-ayrı epizodik hadisələrin və əməllərin təsviri təşkil etmir. Onun hekayələri bitkin bədii xarakterlərdən, tamamlanmış bioqrafiyalardan ibarətdir. Məsələn, Bartlbi obrazını estetik planda Ahav və Pyer obrazları ilə müqayisə etmək olar.

"İldırım keçirici alverçisi" hekayəsi Melvillin fəlsəfi və etik axtarışları fonunda maraq doğurur. Bu da təsadüfi deyildi. "Amerikada insan şəxsiyyətinə maraq onun əsasən gerçəkləşdirə bilmədiyi potensial mənəvi imkanlarının fəlsəfi və ədəbi səpgilərdə dərki və tədqiqi romantizm cərəyanının sosiomədəni inkişafının hərəkətverici qüvvəsinə çevrilməsinə zəmin yaradırdı. <…> Melvill varlığın universal qanunlarından ayrılmış intellekti öyrənir və kainat makrokosmosundan mikrokosmosuna qədər ierarxiya sistemində insanın fərdi şüurunun vəziyyətini aydınlaşdırmağa cəhd edirdi." [1, s.70]

Sketç üslubunda yazılmış kiçik və ironik əsərin qısa məzmunu belədir: Dəhşətli tufan zamanı təhkiyəçinin evinə bir adam gəlir və ev sahibindən israrla tələb edir ki, ondan ildırım keçiricinin evinin və ailə üzvlərinin təhlükəsizliyini təmin etməsi üçün icazə alsın. Nəhayət, təhkiyəçi təngə gəlib həyasız qonağı evdən çıxarır, taleyinə zəmanət verəcək bu sövdələşmədən imtina edir. Məsələ burasındadır ki, alverçi ev sahibinə sərəncamı sırımaq istəyir- ona öz fəlsəfəsini, "inamı" sırıyır. Bu inam hissi tufan, göylər qarşısında qorxuya söykənir, geniş mənada isə bu, gələcəklə, tale ilə bağlı qorxudur. Gələn adam özünü ali qüvvələrin nümayəndəsi kimi təqdim edir.

Satıcı ilə dialoq zamanı təhkiyəçi əvvəlcə təhdidlər, hədə-qorxu altında çətinliklə duruş gətirsə də, sonra öz fikirlərində daha inamlı olur. Yalnız göylərdən günahlı yerə ölümcül od püskürmür. Tərsinə də olur. Yer səmaya şimşək göndərir. Yeri gəlmişkən, burada göylərə meydan oxuyan Ahavı ("Mobi Dik") və ya göyləri lənətləyən Pyeri ("Pyer") xatırlamaq olar.

"Yer" (yəni insan) göylərə qarşı durmağa, zərbəyə zərbə ilə cavab verməyə qadirdir. Deməli, insan idrakı elə də zəif deyil ki, hansısa "inanca" görə insanları cəzalandıran allahlardan yardım istəsin. Hekayəçi idraka malik olan şəxsiyyət kimi özünə güvənməyə üstünlük verir. Melvill göylər ilə insan taleyi arasında vasitəçi axtarmağın mənasızlığını göstərir. İnsanın gücü onun zəkasında, idrakındadır, başqa insanlarla birləşməsində və həmrəy olmasındadır.

DOI:10.30546/gdu.2023.286-289

Əlbəttə, Melvill üçün "qüdrətli tanrı" mövcud deyildi. Ona qarşı çıxmaqdan da qorxmurdu. Hekayəçinin qəti qərarlarına, qonşularla inandırıcı söhbətlərə baxmayaraq, ildırım keçirici alverçisi hələ də yaxınlıqda dolaşır və insanın qorxuları ilə alver edir.

Melvillin bədii metodu rus yazıçılarının (L.N.Tolstoy, F.M.Dostoyevski, A.P.Çexov) "simptom realizm"inə kifayət qədər yaxındır. Rus klassiklərini ilk növbədə şəxsiyyətin mənəvi həyatı, insanın öz ömür kredosunu axtarması maraqlandırırdı. Həmin yazıçılarda mühit qəhrəmanların xarakteri vasitəsi ilə ictimai durumların yaratdığı simptomlar şəklində təsvir edilir. Bu simptomlar göstərir ki, mövcud şərait şəxsiyyətin inkişafına mane olur. Bu, Melvillin bədii təcrübəsində realist elementlərin artması ilə səciyyəvi hal alır.

Melvillin əsərlərinə müraciət edərkən görürük ki, hadisə yeri kimi hüquqşünas kontoru ("Bartlbi"), kasıb koması ("Eyvan", "Quqquluqu"), gəmi göyərtəsi ("Benito Sereno"), ada ("Enkantadlar") çıxış edir. Bu məkanlar əslində yüzminlərlə amerikalının gündəlik məişəti ilə sıx bağlıdır. Hətta Melvill İntibah dövrü İtaliyasını ("Kilsə zəngi") təsvir edəndə belə hiss olunur ki, hekayənin qəhrəmanı Amerika cəmiyyətinin qarşısında duran məsələləri həll etməyə çalışır.

Melvillin hekayələrində sosial konfliktlər öz əksini dolayısı ilə, personajların taleyi, onların iç dünyasının təhlili kontekstində təsvir edilir. Onun hekayələrində çox nadir hallarda əsl müsbət qəhrəmanları tapmaq olar. Yalnız Hunilla ("Enkantadlar") və "İldırım keçirici alverçisi" hekayəsinin təhkiyəçi-qəhrəmanı güclü iradəyə, saf qəlbə malikdirlər, amma yerdə qalan personajları şərti olaraq iki kateqoriyaya ayırlmaq olar: mövcud vəziyyətə uyğunlaşanlar və mövcud quruluşun əziyyət verdiyi, başqaları kimi yaşaya bilməyən "normal" adamlar.

Beləliklə, Melvillin bədii metodunun formalaşmasında və inkişafında hekayə yaradıcılığı mühüm rol oynamışdır. Melvill hekayələrinin təhlili göstərir ki, yazıçı "Şimal istiqamətinin" nümayəndəsidir. Onun yaradıcılıq ampulasına həyatı rəngsiz-boyasız, olduğu kimi göstərilməsi, Amerika gerçəkliyinin ziddiyyətlərinə diqqət yetirilməsi xasdır. Onun hekayələri sosial narazılığın kəskinləşməsi ilə, "orta və kiçik insanların" taleyinə dərin münasibəti ilə fərqlənir.

### *Ədəbiyyat*

1. Aslanova N. / Amerika və Azərbaycan romantizmində şəxsiyyət konsepsiyası. Fəlsəfə doktoru dissertasiyası. Bakı, 2014. 130 səh.

2Melville H.Battle-Pieces and Aspects of the War, Harper and Brothers,N.Y.,1866,288 pages.

3.Melville H. / The Bell-Tower, Putnam's Monthly, 1855, 25 pages

4.Vandehaar M.M. / Re-Examination of "Benito Sereno". American literature, v.40, No.2, May 1962, 191 pages

5.Sontag S. "An Annotated Bibliography 1948–1992" // Garland publishing. A member of the Taylor & Francis group. New york & London, 2000, p. 255

6.Петровская Е. Кит как текст. Читая «Моби Дика» // Логос : Философско-литературный журнал. 1991. № 2. С. 240–261.

7.Зверев А.М. Герман Мелвилл и XX век // Романтическая традиция американской литературы и современность. М., 1982. С. 205-265.

DOI:10.30546/gdu.2023.286-289

## РАССКАЗЫ ГЕРМАНА МЕЛВИЛЛИ

***Ейюбова Зохра Камил кызы***

***Резюме***

В статье оцениваются различные рассказы Германа Мелвилла в методологическом контексте. Истории описывают существование добра и зла, сложность и разнообразие жизни. Социальные конфликты, судьбы героев исследуются в контексте анализа их внутреннего мира. Анализируются его мысли о рабстве и Гражданской войне.

## THE STARIES OF HERMAN MELVILLI

***Eyubova Zohra Kamil***

***Summary***

The article evaluates Herman Melville's various stories in a methodological context. The stories describe the existence of good as well as evil, the complexity and diversity of life. Social conflicts, the fate of the characters are examined in the context of the analysis of their inner world. His thoughts on slavery and the Civil War are analyzed.

***Rəyçi: dosent Kəmalə***
***Rus dili kafedrasının 20 iyul 2023-cü il tarixli iclasın 10 saylı protokolu***
***Daxil olma tarixi 24 iyul 2023-cü il***